

# ŞƏRQ *qapısı*

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 96 (23.983)

*25 may 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevi qəbul edib. Görüşdə Türk Dövlətləri Təşkilatı çərçivəsində müxtəlif istiqamətlərdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub, Azərbaycanın bu təşkilatın fəaliyyətində rolu yüksək qiymətləndirilib.

Torpaqlarımızın Ermənistan tərəfindən işğalı zamanı və Vətən müharibəsi dövründə təşkilatın Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyin əhəmiyyəti bir daha vurğulanıb.

Bağdad Amreyev Türk dünyasından olan özəl şirkətlərin və iş adamlarının Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən quruculuq layihələrinə böyük maraq göstərdiklərini bildirib. Bağdad Amreyev Şuşanın 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunduğunu qeyd edib, bu baxımdan Azərbaycan ilə birlikdə Şuşada çoxsaylı mədəniyyət tədbirlərinin keçiriləcəyini deyib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Özbəkistan Respublikasının Baş nazirinin müavini, turizm və mədəni irs naziri Aziz Abduhakimovu qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türk Tarix Qurumunun sədri Birol Çətin ilə görüşmüşdür.

Ali Məclisin Sədri Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə Türk Tarix Qurumu arasında imzalanan əməkdaşlıq protokolunun əhəmiyyətini vurğulamış, ortaq türk tarixinin yazılmasının vacibliyini diqqətə çatdırmışdır. Qədim türk torpağı olan Naxçıvanın tarixinin Nuh Peyğəmbərlə bağlı olduğunu bildirən Ali Məclisin Sədri Anadolunun türkləşməsində və İslam dininin o ərazilərdə yayılmasında Naxçıvanın rolundan danışmışdır.

Ali Məclisin Sədri müstəqillik illərində Naxçıvan tarixinin öyrənilməsi sahəsində görülən işlərdən bəhs etmiş, Naxçıvanşünaslığın mühüm elmi nailiyyətlərlə zənginləşdirildiyini qeyd etmiş, birgə əməkdaşlığın faydalı olacağına əminliyini bildirmişdir.

Türk Tarix Qurumunun sədri Birol Çətin Naxçıvanda olmaqdan məmnunluğunu ifadə etmiş, rəhbərlik etdiyi qurumun gördüyü işlər, aparılan arxeoloji qazıntılar barədə məlumat vermişdir. Naxçıvandan olan alimlərin iştirakı ilə arxeoloji qazıntıların aparılmasında, beynəlxalq konfransların keçirilməsində maraqlı olduqlarını bildirən Birol Çətin birgə əməkdaşlığın əhəmiyyətini vurğulamışdır.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Türk Tarix Qurumu ilə AMEA Naxçıvan Bölməsi arasında birgə əməkdaşlığa dair müqavilə imzalanıb

*Türkiyə Cümhuriyyəti Mədəniyyət Nazirliyi Atatürk Mədəniyyət, Dil və Tarix Ali Qurumunun Türk Tarix Qurumu sədri və nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında olub.*

Qonaqlar öncə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki əzəmətli abidəsini ehtiramla ziyarət edib, önünə gül qoyub, Heydər Əliyev Muzeyi ilə tanış olub, türk xalqının böyük öndəri Mustafa Kamal Atatürkün büstünü və Şəhidlər xiyabanını ziyarət ediblər. AMEA Naxçıvan Bölməsi ilə tanış olan qonaqlar bölmə əməkdaşlarının əsərlərindən ibarət sərgiyə, həmçinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Arxeologiya və etnoqrafiya muzeyindəki eksponatlara baxıblar. Daha sonra Türk Tarix Qurumu ilə AMEA Naxçıvan Bölməsi arasında əməkdaşlıq müqaviləsinin imzalanma mərasimi keçirilib.

Mərasimi açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qonaqları salamlayaraq ulu öndər Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamına əsasən təsis olunan bölmənin fəaliyyəti, əldə edilən elmi nailiyyətlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, bölmənin tərkibinə 6 elmi-tədqiqat müəssisəsi, elmi kitabxana və arxiv, Nəbatat bağı, Batabat Astrofizika Rəsədxanası və başqa elmi-tədqiqat müəssisələri daxildir. Naxçıvanın hərtərəfli tədqiqi məqsədilə yaradılan bölmədə bu günədək bölgənin tarixi, arxeologiyası, etnoqrafiyası, folkloru, ədəbi mühiti, dil xüsusiyyətləri və digər sahələrin





tədqiqi ilə bağlı araşdırmalar aparılır, araşdırmaların nəticələri müxtəlif kitab və monoqrafiyalarda, elmi jurnallarda, eləcə də mətbuatda əksini tapır.

Akademik vurğulayıb ki, Türk Tarix Qurumu ilə imzalanacaq əməkdaşlıq müqaviləsi hər iki elm müəssisəsi arasındakı akademik əməkdaşlığı təsis etmək, gücləndirmək və inkişaf etdirmək üçün lazımi platformanın hazırlanması məqsədi daşıyır.

Türk Tarix Qurumunun sədri, professor Birol Çətin çıxış edərək Naxçıvanda olmaqdan məmnunluğunu ifadə edib. Qurumun yaradılması, fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verən professor diqqətə çatdırıb ki, qurum 90 ildən artıq dövr ərzində türk tarixinin hərtərəfli araşdırılmasını əsas məqsəd kimi müəyyənləşdirmiş, bu sahədə çoxsaylı uğurlar əldə olunmuşdur. Xüsusilə son illər arxeologiya sahəsində aşkar olunan elmi faktlar bu sahənin inkişafına öz müsbət təsirini göstərmişdir. Tarixin bütün sahələrində böyük irəliləyişlərin əldə olunduğunu söyləyən qurum rəhbəri qeyd edib ki, Türk Tarix Qurumu göstərdiyi səmərəli və çoxşaxəli fəaliyyəti ilə tarixçilər üçün əsl məktəbə çevrilmişdir.

Birol Çətin müasir dövrdə fakt və həqiqətlərin dünyaya çatdırılmasında tarix elminin əvəzsiz xidmətini vurğulayıb, xüsusilə gənc nəsildə bu elm sahəsinə artan həvəsi olduqca sevindirici hal kimi qiymətləndirib. Yeni imzalanan əməkdaşlıq müqaviləsinin hər iki qurum üçün gələcək perspektivlər vəd etdiyini, bu münasibətlərin həm rəsmi, həm də dostluq müstəvisində inkişafının mühümlüyünü qeyd edib.

Daha sonra AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və Türk Tarix Qurumunun sədri, professor Birol Çətin müqaviləyə imza atıblar. Müqavilədə birgə elmi araşdırmaların aparılması, beynəlxalq simpoziumların, konfransların və tədbirlərin təşkili, elmi əsərlərin müəllif hüquqlarının və tərcümələrinin dəstəklənməsi, nəşr edilməsi və yayılması, Türkiyə və Azərbaycan arxeoloqlarının birgə iştirakı ilə arxeoloji qazıntıların aparılması, elmi və mədəni görüşlərin birgə təşkili, elm adamlarının, doktorant və mütəxəssislərin mübadiləsi, hər iki ölkədə doktorantura tələbələri üçün yay məktəblərinin təşkili və başqa mühüm işlərin icrası nəzərdə tutulub.

Professor Birol Çətin gətirdiyi hədiyyə və kitabları bölmə rəhbərinə təqdim edib. Akademik İsmayıl Hacıyev 3 cildlik "Naxçıvan tarixi" kitabını qonağa bağışlayıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsi haqqında sənədli film nümayiş olunub, sonra Naxçıvan adının mənşəyi, mənası, Nuh Peyğəmbərlə bağlılığı haqqında müzakirə aparılıb, icrası nəzərdə tutulan işlər təhlil olunub.

Qonaqlar səfər çərçivəsində "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Naxçıvanqala Tarix-Memarlıq Kompleksini, Nuh Peyğəmbərin məzarüstü abidəsini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzini ziyarət ediblər.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və

## Tələbələrlə görüş olub

hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasının I kurs tələbələri ilə görüş keçirilib. Tədbiri giriş sözü ilə Orta İxtisas Polis Məktəbinin rəisi, polis polkovniki Kamil Məmmədəliyev açaraq bildirib ki, qısa zamanda məktəbin təlim-tədris prosesində müəyyən müsbət nəticələrə nail olunub. 2021-ci ildə polis məktəbini bitirən ilk məzunlar üçün təntənəli buraxılış mərasimi keçirilib, 25 gənc zabit daxili işlər orqanlarında müvafiq vəzifələrdə xidmətə başlayıblar.

Nazirliyin Kadrlar şöbəsinin rəisi, polis kapitanı Rahin Əmirov çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin sərəncamlarına əsasən Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin hamiliyinə verilib. Müvafiq sərəncamlardan irəli gələn vəzifələrin icrasına Daxili İşlər Nazirliyinin təcrübəli əməkdaşları cəlb edilməklə həmin tələbələrlə artıq bir neçə görüş keçirilib.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin Hüquq fənləri kafedrasının müdiri Elman Abbasov çıxışında hamiliklə bağlı müvafiq sərəncamların icrasının tələbələrin peşə biliklərinə yiyələnməsində böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Sonra tələbələr tədris şəraiti ilə yaxından tanış olublar.

**✍ Nail ƏSGƏROV**

# Müstəqilliyin, dövlətçiliyin, sülhün qorunmasına xidmət edən Türk dünyasının birliyi strategiyası

*Ötən əsrin sonlarında baş verən geosiyasi dəyişikliklər nəticəsində dünyanın siyasi xəritəsində yeni müstəqil türk dövlətlərinin yaranması və qloballaşan dünyanın çağırışları ilə üzləşməsi türkdilli xalqların daha çox birlikdə hərəkət etməsi zərurətinin yaranmasına gətirib çıxarmışdır. Ötən əsrin 90-cı illərindən başlayaraq, türkdilli dövlətlərin başçılarının zirvə görüşləri ortaq mənəvi irsin qorunması və təbliği baxımından mühüm rol oynamışdır. Türkdilli dövlətlərin başçılarının zirvə görüşlərinin keçirilməsi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) yaradılması, Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) təsis edilməsi nəticəsində türkdilli ölkələr arasında olan əməkdaşlıq yeni təşkilati mərhələyə daxil olmuşdur. Bununla da türk dövlətləri siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin gücləndirilməsinə xidmət edən sistemli fəaliyyətin əsasını qoymaqla əbədi qardaşlıq bağlarının möhkəmlənməsinə zəmin yaratmış oldular.*



Adətən, deyirlər ki, tarix şəxsiyyəti yaradır, amma böyük şəxsiyyətlər də öz əməlləri ilə tarix yazır, onu istiqamətləndirirlər. Ümummilli lider Heydər Əliyev dövrün və zamanın gərdişini gözəl bilən dövlət rəhbəri kimi Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən Türk dünyasında aparıcı mövqelərə çıxması, ümumtürk həmrəyliyinin təmin olunmasında böyük rol oynamışdır. Təsadüfi deyil ki, bu gün dahi öndərin adı türk toplumlarında da hörmətlə anılır, türk dövlətlərinin inteqrasiyasında rolu məmnunluqla qeyd olunur. Ulu öndərin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışı, nəticə etibarilə, təkcə Azərbaycan dövlətçiliyi üçün deyil, eyni zamanda yeni müstəqillik əldə etmiş digər türk dövlətlərinin inkişafı üçün önəmli hadisə idi. Çünki həmin dövrdə əlbir olan xarici qüvvələrin səyləri ilə gənc Azərbaycan dövlətinin məhv edilməsi postsovet məkanındakı digər türkdilli respublikaları üçün də acınacaqlı nəticələr doğura bilərdi. Azərbaycan dövlətinin iflası həmin ölkələrin də böyük güclərin geosiyasi əsarətinə keçməsinə, yeni imperiya boyunduruğuna düşməsinə yol aça bilərdi. Dahi lider Heydər Əliyev Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qorumaqla digər türk dövlətlərinin bərabərliyi, gələcək tərəfdaşlığı üçün tarixi xidmət göstərmiş oldu.

Məhz buna görə ulu öndər Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıtdığı gün, 1993-cü ilin 15 iyununda Ali Sovetdə proqram xarakterli çıxışında xarici siyasətin önəmli istiqaməti kimi türkdilli dövlətlərlə işbirliyini qeyd etmişdi: ***"Xarici siyasət sahəsində görüləsi işlər çoxdur. Birinci növbədə, yaxın qonşularımızla sıx münasibətlər yaradılmalıdır. Bu baxımdan, Türkiyə ilə əlaqələr, şübhəsiz ki, önəmli yer tutur. Eyni zamanda keçmiş Sovetlər İttifaqına daxil olan türkdilli ölkələrlə əlaqələrimiz sürətlə inkişaf etməlidir. Bizim bu dövlətlərlə əlaqələrimiz uzun illər çox yaxın olub. Bu əlaqələri qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır".***

Ümumiyyətlə, türkdilli ölkələr arasında əlaqələr hər keçən gün artmaqda və inkişaf etməkdədir. Türkdilli xalqları ortaq mədəniyyət, adət-ənənələr, milli-mənəvi və dini dəyərlər, tarixi köklər, etnik əlaqələr birləşdirir və bu amillər qarşılıqlı səmərəli fəaliyyət üçün əsas təməldir. Bu əlaqələrin əhatə dairəsi çoxşaxəlidir. Beynəlxalq Türk Mədəniyyət Təşkilatı olan TÜRKSOY Türk dünyasının milli-mənəvi irsinin qorunması, inkişafı və təbliği istiqamətində mühüm vəzifəni həyata keçirir. Məlumdur ki, türkdilli dövlətlər coğrafi-strateji baxımdan dünyanın əhəmiyyətli bölgəsində yerləşir. TÜRKSOY-un ardından Türk Şurası və TÜRKPA-nın yaradılması regionda türkdilli ölkələrin hərtərəfli qarşılıqlı fəaliyyəti üçün önəmli təkan verir, regional təhlükəsizlik təhdidlərinə qarşı mübarizə aparır, ticarət və investisiya imkanlarının möhkəmlənməsinə köməklik edir.

Məlum olduğu kimi, Türk Şurası türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixdə Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvanda keçirilən Zirvə görüşündə Prezident cənab İlham Əliyevin ev sahibliyində imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır. Bu da Azərbaycanın türkdilli dövlətlər arasında nə qədər inamlı və əvəzsiz körpü rolu oynadığının bariz nümunələrindən biri kimi göstərilə bilər. Ortaq tarix, ortaq dil, ortaq kimlik və ortaq mədəniyyət kimi dörd əsas sütun üzərində qurulmuş olan Türk Şurası özünü bu ümumiliklərlə məhdudlaşdırmır. Daha doğrusu, təşkilat üzv dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, nəqliyyat, gömrük, turizm və digər sahələr üzrə mövcud ikitərəfli əməkdaşlıq əlaqələrini genişləndirərək regiona fayda verməsi üçün çoxtərəfli əməkdaşlığa çevrilmək niyyəti daşıyır. Təşkilat, eyni zamanda tarixi İpək Yolunun bərpası, regional Türk Diasporu mərkəzlərinin qurulması kimi əhəmiyyətli mövzularda önəmli qərarlar qəbul etmişdir. Naxçıvanda keçirilən IX Zirvə toplantısında Prezident cənab İlham Əliyev deyirdi: ***"...Naxçıvanın Türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərlərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqı zamanı da Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə, Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı..."***

Böyük Atatürk vaxtilə deyirdi ki, "Naxçıvan türkün qapısıdır". Bu gün öz inkişafı ilə Naxçıvan Türk dünyasının elm, mədəniyyət və maarifçilik mərkəzinə çevrilib. Naxçıvan Türk dünyasına böyük dühalar bəxş edən bir diyardır. Türk dünyasının böyük oğlu, türkdilli xalqların birliyinin təmin olunmasında mühüm xidmətləri olan ümummilli liderimiz Heydər Əliyev, memar Əcəmi Naxçıvani, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, tanınmış rəssam Bəhruz Kəngərli kimi dahilərin vətənidir Naxçıvan. Bütün bunların nəticəsidir ki, Türk Şurası Gənc Liderlərinin ilk forumu da Naxçıvanda keçirilmişdir. Həmin forum eyni soykökə, ortaq mədəniyyətə və tarixə malik olan türkdilli ölkələrin gəncləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi və inkişafı, eləcə də idman sahəsində əməkdaşlığın qurulması üçün geniş imkanlar açmışdır. Forumda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Kitabi-Dədə Qorqud" və "Manas" dastanları, Orxon-Yenisey, Qobustan və Qəmiqaya yazılı abidələri türk xalqlarının milli varlığının, təfəkkürünün və birliyinin ifadəsidir. Mövlana Cəlaləddin Rumi, Xoca Əhməd Yasəvi, Baba Nemətullah Naxçıvani kimi görkəmli mütəfəkkirlər ümumtürk mədəniyyətinin möhkəmlənməsinə öz töhfələrini vermişlər. Bu mədəniyyətdə payı olan Naxçıvan coğrafi cəhətdən də türk toplumlarının mərkəzində yerləşir. 2009-cu ildə Türkdilli ölkələrin dövlət başçılarının doqquzuncu zirvə görüşünün, bu gün isə Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsi mərkəz kimi Naxçıvanın əhəmiyyətini daha da artırır".***

Türk dünyasında uzaqgörən, məqsədyönlü, prinsipial lider kimi şöhrət qazanan cənab İlham Əliyev hələ 2009-cu ilin oktyabrında türkdilli dövlət başçılarının Naxçıvan Zirvə görüşündə deyirdi: ***"Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi, demək olar ki, böyük Türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni Türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti onilliklər ərzində dayandırılmışdır".***

Bu gün isə Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan tarixi hadisədir. Prezident cənab İlham Əliyev türkdilli dövlətlər arasında coğrafi bağlılığın bərpa edilməsinə, bütün Türk dünyasının birlik arzusunun reallığa çevrilməsinə misilsiz töhfələr verən liderdir. Türk Şurasının Naxçıvandan başlanan inkişaf yolunda dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan təşkilatın inkişafına, onun sıralarının genişlənməsinə, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə və əlaqələrinin artmasına önəmli töhfələr verib. Azərbaycan 2019-2021-ci illərdə Türk Şurasına uğurla sədrlik edib, Prezident cənab İlham Əliyev təşkilatın fəaliyyətinin gücləndirilməsi, türkdilli ölkələr və xalqlar arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərib, Türk Şurasının digər mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə səmərəli əməkdaşlıq münasibətlərinin davam etdirilməsinə, Ümumdünya Səhiyyə Təşkilatı ilə faydalı əməkdaşlıq çərçivəsinin qurulmasına misilsiz töhfələr verib. Azərbaycanın Türk Şurasına sədrliyi ölkəmiz üçün olduqca tarixi bir dövrə təsadüf edib, Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü gerçəkləşdirib. Ölkəmizin tarixi Zəfəri Türk dünyasında birliyin və həmrəyliyin daha da güclənləndirilməsində mühüm rol oynayıb. Hazırda regionda həyata keçirilən beynəlxalq və regional layihələr türkdilli dövlətlər arasında bağlılığa öz töhfəsini verməkdədir. Zəngəzur dəhlizinin açılması bu bağlılığı daha da artıracaq, əməkdaşlığımıza yeni nəfəs qatacaq, üzv ölkələr arasında yük və sərnişin daşımalarının həcminə müsbət məcrada təsir edəcək. Eyni zamanda inteqrasiya prosesləri və mexanizmləri insanlarımız arasında da təmasların intensivləşməsinə səbəb olacaq. Azərbaycanın milli maraqlarının təmin edilməsi məqsədilə həyata keçirdiyi prinsipial, ardıcıl və qətiyyətli siyasət dünya miqyasında, türkdilli xalqlar arasında və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Məhz dövlətimizin başçısının diplomatik səyləri və məharəti nəticəsində Azərbaycanın haqq səsi dünyaya çatdırıldı, erməni yalanları beynəlxalq miqyasda ifşa olundu, dünyanın aparıcı beynəlxalq təşkilatları tərəfindən ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul edildi, ayrı-ayrı dövlətlər, dünya səviyyəsində tanınmış ictimai-siyasi xadimlər, nüfuzlu şəxsiyyətlər tərəfindən Ermənistanın işğalçılıq siyasəti pislənildi və Azərbaycanın haqq işinə dəstək verildi. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində Azərbaycanda güclü iqtisadi potensial formalaşdırıldı, güclü, müasir, qarşısında duran istənilən vəzifəni yerinə yetirməyi bacaran müzəffər Ordu yaradıldı. Dövlətimizin başçısının sərkərdəlik və diplomatik məharəti sayəsində Azərbaycan İkinci Qarabağ müharibəsində Ermənistanı diz çökməyə, kapitulyasiya aktını imzalamağa məcbur etdi, Azərbaycan Ordusu tarixi ərazilərimizi işğaldan azad edərək Zəfər qazandı.

Türkdilli dövlətlərin regionda sabitliyin və sülhün qorunub saxlanılması, ölkələrimizin ərazi bütövlüyünün beynəlxalq münasibətlər sistemi səviyyəsində tanınması və qəbul olunması, BMT-nin qəbul etmiş olduğu qətnamələrdən irəli gələn məsələlərin türk dövlətləri arasında da yekdilliklə qarşılıqlı hörmətə dayanaraq qəbul edilməsi kimi məsələləri də vurğulaya bilərik. Burada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələni qeyd etmək lazımdır ki, münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulmazlığı prinsipləri əsasında ən tez zamanda həllinin vacibliyi bütün Zirvə toplantılarının qəbul etdiyi qətnamələrində xüsusi olaraq vurğulanmışdır. Bunu Azərbaycanın uğuru olmaqla bərabər, eyni zamanda türkdilli dövlətlər tərəfindən Azərbaycanın haqq səsinin qəbul olunması və dəstəklənməsinə verdikləri bir töhfə və həmrəylik kimi qəbul edə bilərik.

*Yekun olaraq qeyd etmək lazımdır ki, müxtəlif sahələrdəki əməkdaşlıq gələcəkdə Türk dünyasının qlobal siyasi və iqtisadi proseslərdə rolunun güclənməsinə mühüm töhfələr verəcəkdir. Bu isə regional və beynəlxalq sabitlik, təhlükəsizlik və əməkdaşlıq kontekstində müstəsna əhəmiyyət kəsb edir.*

**Arzu ABDULLAYEV**
***Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti ərazi partiya təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru***

# ADA Universitetinin müəllimləri təlim keçib

ADA Universitetinin nümayəndə heyəti Naxçıvan Dövlət Universitetinin müəllimləri üçün "Ali təhsil müəssisəsində elmi-tədqiqat işlərinin gücləndirilməsi yolları" mövzusunda təlim keçib. ABŞ Səfirliyinin Təhsil və mədəniyyət üzrə müşaviri Riçard Pinkham, ADA Universitetinin Təhsil fakültəsinin icraçı direktoru Səidə Nəbiyeva, universitetin İctimai və beynəlxalq münasibətlər fakültəsinin dekanı Anar Vəliyev və həmin universitetin Təhsil fakültəsinin baş müəllimi Vəfa Yunusova bu münasibətlə Naxçıvan Dövlət Universitetində olublar.



Universitetin rektoru Elbrus İsayev qonaqları salamlayaraq ali təhsil ocağında professor-müəllim heyətinin elmi fəaliyyəti, nüfuzlu jurnallarda məqalə nəşri ilə bağlı mühüm məqamları tədbir iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edilib ki, universitetdə keçirilən təlimlər öz əhəmiyyəti ilə seçildiyi kimi universitet əməkdaşlarının beynəlxalq jurnallara çıxışının təmin edilməsində də vacib hal kimi qeyd olunmalıdır. Müasir dövrdə universitetlərin əsas missiyalarından birinin səmərəli və nəticəyönümlü elmi-tədqiqat fəaliyyətləri ilə yerləşdikləri regionun inkişafına töhfə vermək olduğunu vurğulayan rektor bu məqsədlə sözügedən layihənin təqdim etdiyi imkanlardan danışıb. Elbrus İsayev əldə edilən bilik və bacarıqların tezliklə universitetdə elmi fəaliyyətin səmərəliliyinin yüksəlməsində özünü doğruldacağına əminliyini söyləyib və seminar iştirakçılarına uğurlar arzulayıb.

ABŞ Səfirliyinin Təhsil və mədəniyyət üzrə müşaviri Riçard Pinkham çıxış edərək Naxçıvana olmaqdan xüsusi zövq aldığını dilə gətirib. Qonaq səfirliyin hazırda mövcud olan təhsil proqramlarından danışıb.

İki gün davam edən təlimin ilk günündə ADA Universitetinin İctimai və beynəlxalq münasibətlər fakültəsinin dekanı Anar Vəliyev elmi nəşrlərin strategiyasından danışıb. Beynəlxalq indeks bazalarına malik nüfuzlu jurnallar haqqında ətraflı məlumat verən Anar Vəliyev təlimin ikinci günündə elmi-tədqiqat işi üçün məlumatların toplanması və təhlili qaydaları haqqında məlumat verib.

Universitetin Təhsil fakültəsinin baş müəllimi Vəfa Yunusova keçdiyi təlimdə mövzunun düzgün seçilməsini yazının əsas faktorlarından biri kimi təhlil edib. Elmi məqalələrin yazılma üslubu və qaydaları haqqında tədbir iştirakçıları ətraflı məlumatlandırılıb.

Sonra müzakirələr aparılıb, suallar cavablandırılıb. Təlimin sonunda iştirakçılara sertifikat təqdim olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

***Tikinti obyektlərini onsuz təsəvvür etmək mümkünsüzdür. İnşaat materialları içərisində başda, hətta birinci yerdə gəlir. Bu da təsadüfi deyil. Çünki çox sayda binaların, geniş yolların, hava limanlarının, milyonlarla kubmetr sututumuna malik anbarların, hərbi obyekt və istehkamların tikintisindən tutmuş fərdi evlərin inşasınadək məhz ondan istifadə olunur. İlk dəfə kim tərəfindən icad edildiyi məlum olmasa da, bu sahədə daha çox romalıların adı çəkilir. Söhbət inşaat işlərində ən çox ehtiyac duyulan bir məhsuldan – sementdən gedir.***

*“Sənaye ili” – 2022*

# İstehsalçı üçün ən dəyərli mükafat keyfiyyətli məhsula sahib olmaqdır

Sement qeyri-üzvi mənşəli quru toz halında olan bir maddədir. Muxtar respublikanın ərazisi digər faydalı qazıntı yataqları kimi sement xammalı ilə də zəngindir. Elə bu amil nəzərə alınaraq xammal ehtiyatlarının hesablanmasından sonra – 2009-cu ildə Kəngərli rayonunun ərazisində 150 hektarlıq bir sahədə sement istehsalı üçün böyük bir müəssisənin təməli qoyulur. Müəssisənin elektrik enerjisi ilə təminatı üçün ayrıca 110-35-10 kilovoltluq yarımstansiya quraşdırılır, Naxçıvan-Sədərək magistral yolundan avtomobil yolu çəkilir. İnvestisiya qoyuluşuna görə regionun ən böyük layihələrindən biri kimi zavodun açılışı 2012-ci ilin may ayında olur və açılış mərasimində Prezident cənab İlham Əliyev də iştirak edir. Hazırda Naxçıvan Sənaye Kompleksinin tərkibində fəaliyyət göstərən bu müəssisə gündəlik 1400 tona qədər sement, 1000 tonadək isə qlinker istehsal etmək imkanına malikdir.



“Sement bu gün ölkələrarası ixrac-idxal əməliyyatlarında çox mühüm yer tutan inşaat materialıdır. Xammalı bütün ölkələr üzrə bərabər paylanmayıb. Ancaq istifadəsi çox vacib material olduğundan hər bir ölkə onu almaq, ya da istehsal etmək məcburiyyətindədir. Hətta bir neçə il bundan əvvəl dünya sement istehsalçılarının hesablamalarına görə, dünyada sement istehsalı adambaşına 1 ton həcmində olmuşdu! Təbii ki, bu, bütün ölkələr üçün keçərli deyil, tələbata görə dəyişir. Ancaq istənilən halda çox böyük rəqəmdir! Uzağa getməyək, təkcə 2013-2014-cü illərdə Naxçıvan Muxtar Respublikasında istehlak olunan sementin həcmi gündəlik 1300-1400 ton arasında dəyişirdi. Bu, təxminən, bir il ərzində yarım milyon tona yaxın istehsal deməkdir”, – bunu Naxçıvan Sement Zavodunun Keyfiyyətə nəzarət və məhsulun təkmilləşdirilməsi şöbəsinin müdiri Şakir Cəfərov deyir. O, müəssisə qurulandan burada çalışan mütəxəssislərdən biridir. Gənc kadrdır, 37 yaşı var. Hətta tam səmimiyyətlə deyə bilərəm ki, işinin peşəkarıdır. Rəhbərlik etdiyi şöbənin adındakı “məhsulun təkmilləşdirilməsi” ifadəsi ona, ilk olaraq belə bir sualla müraciət etməyimə əsas verdi:




***– Sement istehsalında təkmilləşdirmə davamlı prosesdir?***

– Bəli. Suala dolğun cavab vermək üçün gəlin əvvəlcə sementin tərkibinə nəzər salaq. Sement tərkibi kalsium silikatlar, alüminoferrit və alminatlardan ibarət hidrolik yapışdırıcıdır. Bizim istehsal etdiyimiz sementin xammalı Kəngərli rayonu ərazisindəki Çalxanqala yataqlarından hasil olunur. Daşlaşmış kütlə şəklində olan bu xammal yük maşınları ilə zavoda daşınaraq burada üyüdülür. Təyinatına uyğun olaraq istehsal edilən sementdə adını sadaladığımız birləşmələrin hər biri müvafiq ölçülərdə olmaqla prosesə cəlb edilir. Sadə dildə desək, bu kimyəvi birləşmələrin hər birinin istehsalda öz ölçüsü var. Keyfiyyətli sement üçün bu ölçülərə çox həssaslıqla yanaşmaq lazımdır, əks təqdirdə istədiyiniz alınmayacaq.

***– O zaman bütün bu proseslər laboratoriyada həyata keçirilir?***

– Bəli, laboratoriya olmadan istehsal mümkün deyil.

***– Onda belə demək mümkünsə, “laboratoriya bu zavodun əsl ürəyidir”, çünki söhbət min tonlarla istehsal olunan məhsulların tərkibindən gedir.***

– Elədir. Hətta bizim şöbənin nəzarət qaydalarından biri də budur ki, istehsal olunaraq satışa göndərilən məhsulların hər birinin istehsal mərhələsinə aid nümunələr laboratoriyada saxlanılır. Eyni zamanda bu məhsullardan kiçik qəliblər vasitəsilə alınmış beton kütlələri, hansı ki bu nümunələrin üzərində müvafiq məlumatlar qeyd olunur, bunların hamısı bizdə laboratoriyanın arxivində saxlanılır, müəyyən zaman keçdikdən sonra məhv edilir. Bunu ona görə edirik ki, əgər sifarişçi bizdən aldığı məhsulu işlətdikdən sonra hər hansı şikayəti olarsa, biz həmin məhsulun eyni nümunələrini ortaya qoymaqla bu şikayəti araşdırmağa hazırıq.

***– Şakir müəllim, bu gün Naxçıvanda təyinatına görə hansı sement markaları istehsal olunur?***

– Bu məsələyə, xüsusilə toxunmaq istərdim. Çünki çox zaman sadə vətəndaşlar sementi yalnız bir tərkibdə görür və onu istənilən yerdə istifadə edə biləcəklərini düşünürlər. Ancaq, əslində, sementin istifadəsi təyinatına görə fərqlənir. Məsələn, siz adi fərdi evin tikintisi üçün nəzərdə tutulmuş sementi böyük su dəryaçalarının bəndlərində və yaxud 80-100 mərtəbəli binaların tikintisində istifadə edə bilməzsiniz.

***– Yəni məhsulun seçimində təyinata uyğun istifadəni nəzərə almaq mütləqdir.***

– Əlbəttə. Doğrudur, vətəndaşların marka seçimində hər hansı bir problemlə qarşılaşacağını düşünmürəm. Çünki strateji təyinatlı və yaxud böyükhəcmli obyektlər üçün lazım olan sement sifarişləri, adətən, bütün dünyada böyük şirkətlər tərəfindən verilir, yəni burada sadə vətəndaş yox, mütəxəssislər rol oynayır. Sadəcə olaraq onu bildirmək istərdim ki, bütün istehsal proseslərində hər bir məhsul istifadə təyinatına uyğunlaşdırılaraq istehsal olunur. Əslində, bu belə də olmalıdır. Belə bir mənzərə düşünün: satıcı sizə “keyfiyyətli” adı altında çox yüksək müqavimətə malik sement satır və siz onu evin daxili və ya xarici divarlarında suvaq kimi istifadə edirsiniz. Sonra siz həmin divara bir mismar vurmaq istəyirsiniz, ancaq vura bilmirsiniz, hətta əl dəzgahları ilə həmin örtüyü deşməyə dəmir ucluğun gücü yetərli olmur. Çünki sement seçimi burada doğru aparılmayıb. Biz də illərdir, bu sahədə müxtəlif təcrübələr apararaq ixtisaslaşmaya getdik və bu gün artıq bizim müəssisədə bazar tələbatına uyğun olaraq yüksək yapışqanlığa, rahat yayılma və dayanıqlığa malik GEM II/B-LL 32,5 R – köhnə standartlarla desək, M 400 və yüksək müqavimətə və sututma qabiliyyətinə, azaldılmış hidrotasiya istiliyinə malik GEM II/A-LL 42,5 R (M 500) markalı sement məhsulları istehsal edilir.

***– Səhv etmirəmsə, sizin məhsullar keyfiyyət nişanı da alıb.***

– Naxçıvan Sement Zavodu “CE” keyfiyyət nişanına layiq görülüb. Bu keyfiyyət nişanı məhsulun Avropa tələblərinə uyğunluğunun göstəricisidir. Bu keyfiyyətin nəticəsidir ki, artıq neçə illərdir, Naxçıvan sementi digər bazarlara da satışa çıxarılır.



***– Naxçıvan sementinin keyfiyyətindən hər kəs ağızdolusu danışır. Bu keyfiyyətin sirri nədir? Xammalın tərkibi, düzgün istehsal, yoxsa nə?***

– Səbəbi yalnız bir məsələnin üzərinə qoysaq, düz olmaz. Səbəblər çoxdur. Çünki ən keyfiyyətli xammal bəzən naşı istehsalçının əlində zay məhsula çevrilər və yaxud əksinə, o qədər yaxşı olmayan xammal təcrübəli istehsalçının əlindən keçəndən sonra keyfiyyətli məhsul kimi özünü təqdim edə bilər. Konkret, sementə gəldikdə, burada xammalın da rolu var, bu xammalı keyfiyyətli məhsula çevirən kollektivin də.

***– Onda gəlin məsələyə belə yanaşaq: keyfiyyətli xammal ilahi təqdirdir, keyfiyyətli komanda isə... bu bir təcrübədir.***

– Bəli, bu, həqiqətən, qazandığımız təcrübədir.

***– Elə bu təcrübədən danışmağınızı istəyirəm...***

– Adətən, işdə qazandığımız təcrübələri bir-birimizə öyrətməyə daha həvəsliyik. Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, bu müəssisənin ilk işçilərindənəm. Ali təhsil alsam da, əvvəllər bu sahə ilə heç bir tanışlığım yox idi. İlk gündən başlayaraq buradakı istehsal proseslərində yaxından iştirak edir, sement haqqında daha çox öyrənməyə çalışırdım. Ancaq burada öyrənməyimin yetərli olmadığını düşündüyümdən dünyanın məşhur sement istehsalçıları, onların iş prinsipləri, laboratoriya təcrübələri ilə daha yaxından maraqlanmağa başladım. Digər bir çətinliyimiz bu sahədə doğma dilimizdə heç bir ədəbiyyatın olmaması idi. Ancaq bütün bunlara baxmayaraq, ingilisdilli elektron vasitələrdən istifadə edərək hər keçən gün bu sahədə müəyyən bilik və təcrübələr qazanmağa başladıq və bu iş indi də davam edir. Çünki yaşadığımız dünya çox sürətlə dəyişir və bu dəyişikliklər digər sahələr kimi, tikinti sahəsində də baş verir. Buna görə də daim öyrənmək, öyrənmək, yenə də öyrənmək məcburiyyətindəsən. Bəzən elə olur ki, təkcə bir qarışığın alınması üçün (sement, gips və sair) aylarla zaman sərf edirik. Ancaq ruhdan düşmürük, sonunda müsbət nəticə alınır.

***– Bildiyimə görə, muxtar respublikada artıq bir neçə ildir, istehsal olunan məsaməli betonun ilk qarışığını da siz alıbsınız?***

– Bəli, bu da bizim uzun araşdırmalarımızın nəticəsi olaraq ortaya çıxdı və sonunda bacardıq. İndi Naxçıvan Sənaye Kompleksində istehsal edilən müxtəlifölçülü məsaməli beton bloklar tikintidə geniş istifadə olunur.

***– Bütün bunlar bir daha təsdiq edir ki, biz, həqiqətən, istənilən sahədə bacarığı, istedadı olan xalqıq. Çünki uzun illər bizdə belə bir stereotip formalaşmışdı ki, daha doğrusu, belə təbliğ olunmuşdu ki, bizim yeni texnologiyalara əsaslanan müəssisələrimizdə, laboratoriyalarımızda yalnız xarici mütəxəssislər çalışmalıdır. İndi artıq sizin, eyni zamanda burada çalışan kollektivin timsalında bunun doğru olmadığını görürük...***

– Bir misal da çəkmək istəyirəm. Bir neçə il bundan əvvəl sement tədqiqatları ilə məşğul olan dünyaca məşhur danimarkalı professor Erling Fundalı bizə təcrübə keçmək məqsədilə zavoda dəvət etmişdik. O, burada işimizlə yaxından tanış oldu, laboratoriyada apardığımız araşdırmalarla maraqlandı. İnanın, onun özü belə təəccüb içində idi. Dedi ki, mən belə bir müəssisə ilə qarşılaşacağımı təsəvvür etmirdim: Naxçıvan Sement Zavodu dünyada qlinker mikroskopiyası analizlərini yüksək səviyyədə aparan 3 zavoddan biridir! Təsəvvür edirsinizmi? Fundalın özü dünyanın ən böyük sement zavodlarında uzun illər tədqiqatlar aparmışdı və Naxçıvandakı bu şərait, sözün həqiqi mənasında, onu heyran qoymuşdu. Buna görə də demək istəyirəm ki, laboratoriyamızın müasir avadanlıqlarla təmin olunması, yaradılmış iş şəraiti bu cür müsbət nəticələrin əldə edilməsinə imkan verir. Burada digər bir məqam da, fəaliyyət göstərdiyin sahənin incəliklərini öyrənməkdir. Bizim laboratoriyanın kollektivində elə bir ənənə formalaşıb ki, burada hər kəs öyrəndiyini yeni gələn işçilərə öyrətmək məcburiyyətindədir, daha doğrusu, bunu həvəslə etməyə məcburdur. Çünki yeniliklər paylaşıldıqca hər kəs işə daha həvəslə yanaşır. Sanki hər kəs bir-birini öyrətməyə və bir-birindən öyrənməyə, yaxşı mənada, borcludur. Düşünürəm ki, ötən 10 ildə qazandığımız ən böyük dəyərlərdən biri də elə budur.

***– 10 il çox zaman deyil, ancaq bir istehsal müəssisəsi üçün az vaxt da deyil. Ən əsas odur ki, Naxçıvan sementi bu 10 il ərzində özünü alıcılarına sevdirə bildi. Biz sizdən bundan sonra da yeni uğurlar gözləyirik.***

– Sağ olun. Tam səmimiyyətlə deyə bilərəm ki, bir istehsalçı üçün ən dəyərli mükafat keyfiyyətli məhsula sahib olmaqdır. Şükürlər olsun ki, ötən 10 ildə buna nail olmuşuq. Bizim üçün qürurverici ki, son 10 ildə Naxçıvanda tikilən hər bir evdə, qurulan hər bir ocaqda bizim izimiz var. Mən, eyni zamanda qəzetiniz vasitəsilə “Sənaye ili” münasibətilə digər sənayeçi həmkarlarımızı da təbrik edirəm. Düşünürəm ki, muxtar respublikamızda sənaye sahələrinə göstərilən dövlət qayğısı belə müəssisələrin sayını daha da artıracaq, regionumuz yaxın gələcəkdə ixracatçı region kimi tanınacaq.

***– Sağ olun.***

✍ **Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının***
***Əməkdar jurnalisti***

# Səhiyyə müəssisələrinə işə qəbul edilmiş yeni kadrlar üçün kurslar təşkil olunub

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 oktyabr tarixli “Naxçıvan Muxtar Respublikasında tibb işçilərinin dövlət səhiyyə müəssisələrinə işə qəbulu və sertifikasiyanın aparılması Qaydaları”na uyğun olaraq muxtar respublikada tibb işçilərinin müsabiqə əsasında şəffaflıq yolu ilə işə qəbulu, daha bilikli kadrların seçilərək işlə təmin olunması insan sağlamlığına verilən dəyərin bariz nümunəsidir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən tibb işçilərinin işə qəbulu üzrə növbəti müsabiqə keçirilib. İki mərhələdə aparılan müsabiqə nəticəsində 12-si həkim, 35-i isə orta tibb işçisi olmaqla, 47 nəfər müvafiq keçid balını toplayaraq muxtar respublikanın səhiyyə müəssisələrində işlə təmin edilib.

Yeni işə təyin olunan tibb işçilərinin nəzəri və praktik təcrübələrə yiyələnmələri məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanası, Doğum Mərkəzi, Mərkəzi Uşaq Xəstəxanası və Stomatoloji Xəstəxana publik hüquqi şəxslərdə kurslar təşkil edilib. Kurslarda tibb işçilərinə təyin olunduqları ixtisaslara uyğun vəzifələr haqqında ətraflı nəzəri və praktik təlimlər keçirilir. Qrafikə uyğun olaraq keçirilən kurslarda 47 nəfər (12 həkim, 35 tibb işçisi) ixtisasları üzrə kurslara cəlb edilib. Məlumat üçün bildirək ki, bu günədək keçirilən kurslarda, ümumilikdə, müsabiqə yolu ilə yeni işə təyin olunan tibb işçiləri üçün də kurslar təşkil edilmişdir ki, onlardan da 22-si həkim, 52-si isə orta tibb işçisidir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq aparılan imtahanlarda bu günədək muxtar respublikanın tibb müəssisələri üzrə 830 vakant vəzifə çıxarılıb. Həmin vəzifələrə, ümumilikdə, 330 namizəd sənəd vermişdir. Sənəd verənlərdən 319-u müsabiqənin birinci mərhələsində iştirak etmiş, onlardan 132-si müvafiq keçid balını toplayaraq müsabiqənin ikinci mərhələsində iştirak etmək hüququ qazanmışdır. Birinci mərhələdən keçən namizədlərin ixtisasına uyğun bilik və peşə vərdişlərini müəyyən edən müsabiqənin ikinci mərhələsi – klinik tapşırıq hissəsindən müvafiq keçid balını toplayan 74 nəfər isə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində işlə təmin olunub.

Yeni işə təyin olunan həkim və orta tibb işçiləri üçün təşkil edilmiş kursları başa vuran namizədlərə sertifikatlar verilir.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Bu səfəri qışdan planlamışdıq. Buranın yay mənzərəsini dəfələrlə görsəm də, yaz fəslində daha möhtəşəm olduğunu həmişə təsəvvürümdə canlandırmışdım. Ona görə də qışda edilən təklifi mütləq yazda dəyərləndirmək lazım olduğunu qətiləşdirmişdim. Bu səfərimdə yol yoldaşlarım isə "Naxçıvanı qürurla paylaşırıq" layihəsinin bir neçə üzvü oldu.*





Sərhəd bölgələrimiz

## Düşmənin gözünün ucu ilə baxmağa belə cəsarət edə bilmədiyi

# Şahbulaqdan salam olsun...

Bu dəfə yolumuzu muxtar respublikanın ən böyük kənd təsərrüfatı məhsulları istehsalçısı, daha çox hissəsi aranda yerləşsə də, dağlıq hissələrində özünəxas mənzərələri, ecazkar təbiəti, məhsuldar torpaqları ilə məşhur olan Şərur rayonuna saldıq. Daha dəqiq ünvanımız isə bu rayonun dağlar qoynunda, dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşən Şahbulaq kəndidir.

Naxçıvan-Sədərək magistralı boyunca irəliləyən avtomobilimiz müxtəlif və rəngarəng mənzərələri geridə qoyur. Yolboyu uzanan yaşıl qoruyucu zolaq, sıx ağaclar arxasında zəhmətkeş şərurluların alın tərinin, əl qabarının məhsulu olan geniş əkin sahələri, meyvə bağları bizi mənzilbaşına qədər müşayiət edir.

Sosial mediada və bir çox internet resurslarında Şahbulaq kəndini daha çox məşhurlaşdıran bu yaşayış məntəqəsinə gedən yolun bir hissəsinin iri qayalar arasından keçəndə yaratdığı



möhtəşəm mənzərədir. Bütün ömrünü Yusif sevgisinə həsr edən Züleyxanın eşqi kimi yolu ağuşuna alıb irəliyə aparan bu hündür, sərt sıldırımların hansı qüdrətlə parçalanıb keçənlərə yol açması isə bir müəmmadır.

Açığı, Şahbulaq haqqında diqqətimi çəkən məqamlardan biri də ötən əsrin 90-cı illərinin əvvəllərində düşmənin top atəşinə məruz qalması, sərhəd bölgəsi olaraq insanların ağır günlər yaşaması idi. Şahbulağın müasir mənzərəsini görmək məni həyəcanlandırırdı. Elə buranın insanları da. Çünki o insanlardır ki, həmin o çətin illərdə bir addım da geri atmayıblar və evlərini tərk etməyiblər. Hələ o vaxt sakinlər əl ağacı və quş tüfəngi ilə kəndlərini müdafiə ediblər.

Bu gün – 30 ildən sonra isə hər şey çox dəyişilib. 44 günlük Vətən müharibəsində düşmənin başını əzən "Dəmir yumruq"dan ikiqat güc alan müzəffər Ordumuz kəndin bir addımlığında düşmənlə sərhəddə dayanıb. Özünü Vətəninə, xalqına sipər edən güclü ordu burada yaşayan insanların da qarantı, rahatlığı, güvənc yeridir. Kənd sakinləri deyirlər ki, əsgərimiz Vətən sərhədində ayıq-sayıq durduğuna görə biz də rahat şəkildə öz işimizlə məşğuluq. İndi bilirik ki, düşmən bu tərəfə gözünün ucu ilə baxmağa belə, cəsarət etmir.

Vaxtilə nəinki qazın, işığın, hətta sadə yol infrastrukturunun belə olmadığı Şahbulaq indi müasir quruculuq ünvanları ilə düşmənə gözdağına çevrilib. Muxtar respublika yenidən qazlaşdırılmağa başlayanda da mavi yanacağın şölələndiyi ilk ünvanlardan biri olub bu kənd.

Qayaların ətəyi ilə axan Şapur bulağının sərin suları boyunca yarpız, gicitkən, bulaqotu, min bir dərdin dərmanı olan daha neçə qiymətli dərman bitkisi özünə məskən salıb. Aranla bir aydan çox fərqi olan kəndin təbiətini çiçəkləmiş ağaclar, dağ otlarının ətri, ətrafda uçuşan quşların şən nəğmələri bəzəyir.

Öyrənirik ki, Gümüşlü kəndi ilə eyni nümayəndəlikdə birləşən Şahbulaq kəndində 124 təsərrüfatda 600-dən çox sakin məskunlaşıb. Muxtar respublikada aparılan abadlıq-quruculuq işlərindən bu yaşayış məntəqəsi də öz nəsibini alıb. 2013-cü ildə yeni məktəb, kənd və xidmət mərkəzləri tikilib istifadəyə verilib. Burada sakinlərə keyfiyyətli tibb, poçt-rabitə xidmətləri göstərilir.

Zəhmətkeş şahbulaqlılar Dizə kəndi yaxınlığındakı pay torpaqlarında, geniş sahələrdə buğda və arpa əkinləri aparıblar. Kəndin özündə isə demək olar ki, hər bir meyvə, xüsusilə də alma, armud və gavalı yetişir. Buranın qış armudu isə daha məşhurdur.

Kənd sakinləri daha çox maldarlıq və arıçılıqla məşğul olurlar. Elə buna görədir ki, nümayəndəliyin əhatə etdiyi yaşayış məntəqələrində 800 başdan çox iribuynuzlu mal-qara, 400 arı ailəsi saxlanılır.

Kəndə səfərimiz çiskin yağışlı bir günə təsadüf etmişdi. Sudan doyub ağırlaşmış, ətəyini toplaya bilməyib xalı kimi aşağı salmış buludlar dağların başını bürüyərək bu yerləri özünə məskən edib. Quşlar havanın sərinliyindən zövq alırmış kimi ətrafda sevinclə uçuşaraq ətirli bahar havasına ayrı bir aləm qatırdı.

Kəndin təmiz, ətirli havasından sinədolusu nəfəs alaraq addım-addım bu yerlərin gözəlliklərini kəşf etməyə çalışırıq. Hər qarışını heyranlıqla izlədiyimiz kəndin quruculuq ünvanlarını geridə qoyub növbəti mənzərəyə tərəf



addımlayanda kənd sakini Seyfulla Cəfərovla qarşılaşırıq. Bizi böyük qonaqpərvərliklə evlərinə dəvət edir. Saz-söz həvəskarı olan ev sahibi:

*Yaz olanda bu yaylaqda olasan,*
*Narın-narın yağış yağa, çən gələ.*
*Kəkotunu gül qarışıq dərəsən,*
*Yar-yoldaşın öz yanında tən gələ –*

bəndi ilə geniş eyvanlarında bizi ağır-əziz edir və onunla kifayət qədər maraqlı söhbətimiz alınır. Seyfulla kişi deyir ki, mənim hər şeyim buradır – mənim Vətənim də, obam da, ata-baba yurdum da, istirahət yerim də, iş yerim də buradır – bu torpaqdır. Yaşamaq üçün təbiət burada hər şey yaradıb. Əgər kasıb yaşayırsansa, günah özündədir. Tanrı səndən hərəkət, məndən bərəkət, – deyib. Dağlar arxasındakı Suludərədən başlayan kəndin bulaqları, axar suları buranın torpaqlarına can verir. Ona görə də gərək zəhmət çəkəsən. Torpağa tər tökmək lazımdır ki, o da sənə zər töksün. Heyvandarlıq, arıçılıq, əkinçiliklə məşğul oluruq. İstehsal etdiyimiz məhsullarla həm yaşayışımızı təmin edib ehtiyaclarımızı ödəyirik, həm də ehtiyacımızdan artıq olan məhsulu bazara çıxarırıq.

Çiçək dolu budaqlarını eyvana əyən yasəmənin ətrafa yayılan məstedici ətrinin, çiskin yağışın müşayiəti və Şahbulaq balı ilə çay süfrəsi arxasında səmimi söhbətimiz davam edir. Havanın sərinliyinə qarşı söhbətin hərarəti mövzumuzun daha yaxşı alınmasına şərait yaradır. Elə stolun üstünə gəlmiş bal Seyfulla kişinin yeni mövzuya keçməsinə kifayət edir:

– Keçən il öz süzdüyümüz baldır. Bu yerlərin dağları, düzənləri ətirli çiçəklərlə doludur. Ona görə də burada arı ailələrini bəsləmək çox əlverişlidir. Hər il xeyli məhsul istehsal edirik. Alıcısı isə kifayət qədər çoxdur. Şahbulaq balı öz parlaq rəngi, ətri və dadı ilə elə bal kimi baldır. Arı çox ağıllı canlıdır. Özünə lazım olanı axtarıb tapır. Həm də arıya baxmaq zövq işidir. Adam bu işlə məşğul olanda hər şeyi unudur, hər şey yadından çıxır. Çünki bu canlıların möhtəşəmliyi insanı artıqlaması ilə təəccübləndirə biləcək qədər heyrətamizdir.

Bu dağların gül-çiçəyindən, dərman bitkilərindən ağızdolusu danışan Seyfulla kişi indiyə qədər haqqında heç bir məlumat bilmədiyim, adını birinci dəfə onun dilindən eşitdiyim bir bitki haqqında da danışdı. Living bu dağlarda bitən dərman otudur. Mədə-bağırsaq ağrılarında, soyuqdəymədə geniş istifadə edilir. Yeməklərdə də istifadə olunan bitki, əsasən, umac aşına qatılır. Çox nadir bitki olan livingi yığmaq da ustalıq tələb edir. Dağları kilometrlərlə qarış-qarış gəzib bir dəstə ancaq toplamaq olar. Seyfulla kişi deyir ki, bu nadir bitkini yalnız Şahbulaq dağlarından və Eyvazxan qolundan toplamaq mümkündür.





Həyətyanı sahəsində səliqə ilə çəkilmiş arxlar, yanyana düzülmüş ləklərdə boy göstərən göyərtilər, ara-bərə gözə dəyən çiçəkləmiş otlar həyətin gözəlliyinə başqa bir mənzərə qatır. Seyfulla kişinin nə əkib-becərdiyi ilə maraqlanıram. Sanki bu sualımı gözləyirmiş kimi böyük həvəs və şövqlə növbəti şeir bəndini söyləyib danışmağa başlayır:

*Dolça qırmaz bulaqların buzunu,*
*Yedizdirər sənə əmlik quzunu,*
*Kəm eləmə bozartmanın duzunu,*
*Baxan varmı heç qaşığa, çəngələ?!*

– Bu torpaq qızıldır. Həyətyanı sahələrimizdə hər cür tərəvəz yetişir. Pomidor, kələm, bibər, xüsusilə də kartof, lobya kifayət qədər yaxşı məhsul verir. Mən də hər il həyətyanı sahəmdə bu məhsulların hər birini əkib-becərirəm. Yığdığımız məhsullardan isə həm də qış azuqəmizin tədarükünü görürük.

Çay süfrəsinə qonaq olan şahbulaqlılar öz gileylərini də dilə gətirirlər:

– Hərdən görürük ki, bəzi gənclər tənbəllik də etməyə meyilli olur. Təsərrüfatdan, kəndlinin iş yeri olan torpaqdan aralı gəzməyə çalışırlar. Amma unutmaq lazım deyil, evdə oturmaqla heç nə qazanmaq olmaz. İş həm sağlamlıqdır, həm də qazanc. Yaşadığımız yerdə isə təbiət bu şəraiti insanlara yaradıb. Bu torpaqda yetişməyən məhsul yoxdur. Məhsulu isə həm satırsan, həm də pay verirsən.

Torpağına bağlı insanların yaşadığı bu yurd yerinin tarixi də kifayət qədər qədimdir. Ərazidə tarixi eradan əvvəl II, bizim eranın I-II əsrlərinə aid Şahbulaq qalası, orta əsrlərə aid Şahbulaq yaşayış yeri və yenə də həmin dövrlərə aid Şahbulaq nekropolu mövcuddur. El arasında Dəyirman qayası olaraq tanınan Şahbulaq qalasında vaxtilə Şapur bulağının suyu ilə işləyən su dəyirmanı da mövcud olub. Kəndi əhatə edən dağlarda yerləşən "Qaravulxana" adlanan yerdən vaxtilə kəndin mühafizəsi üçün istifadə olunub. Zamanında yağılardan qorunmaq üçün istifadə olunan bu yer əsrlər sonra erməni daşnaklarına qarşı mübarizənin də istinadgahına çevrilib.

Həmsöhbətim Seyfulla kişinin yeniyetmə nəvələri Əli və Seyfulla da indi bu dağlarda arxayın və rahat şəkildə gəzir, öz torpaqları haqqında fəxrlə, qürurla danışırlar, bilirlər və görürlər ki, dövlət kənd adamları üçün bu torpaqlarda hər cür şərait yaradıb. Onlar da Şahbulaqda yaşayan digər həmyaşıdları kimi təhsil almaları, yaxşı mütəxəssis, sağlam vətəndaş kimi formalaşmaları üçün mövcud şəraitdən istifadə etməyə çalışırlar. Şəhər mərkəzlərindəki məktəblərdən heç nə ilə fərqlənməyən Şahbulaq məktəbi də bu sərhəd kəndində düşmən mövqelərinə qarşı vətənpərvər gənc döyüşçü, öz torpağına ziya, nur salacaq vətəndaşlar yetişdirməyə davam edir.

Kəndə qədər gələn rahat asfalt yol, müasir infrastruktur, sərin bulaqlar, möhtəşəm dağlar Şahbulağı həm də yay və qış turizmi üçün əlverişli məkanlardan birinə çevirir. Rəngarəng örtüyə bürünmüş sərt sıldırımlı dik yamaclar, eyni zamanda bu dağlarda mövcud olan kifayət qədər çox mağaralar buranı dağ turizmi ilə yanaşı, mağara turizmi üçün də cəlbedici hala gətirir. Bura üz tutan qonaqlar ecazkar Şahbulaq yolundan, təbii kənd məhsullarından, dağlarda bitən min bir dərdin dərmanı olan bitkilərdən mütləq zövq alacaqlar. Seyfulla kişinin də aşıq Kamandardan gətirdiyi şeirdə dediyi kimi:

*Kamandardır həzin-həzin ağlaya,*
*Aşıq görən göz gedərmi yuxuya,*
*Hər tərəfdə lalə-nərgiz qoxuya,*
*Bərk yastığa dirsəklənib dincələ.*

***PS.*** Bu arada *#naxçıvanıqürurlapaylaşırıq* haştaqı vasitəsilə bu qrupun muxtar respublikamızın bütün bölgələrindən paylaşdığı mənzərələri, insan hekayələrini, əməkçi, sadə vətəndaşları əks etdirən foto və videoları izləyə bilərsiniz. Elə Şahbulağın da sözlə təsvir etməkdə acizlik çəkdiyim, söz və fotolara sığışdıra bilmədiyim mənzərələrini bu haştaq vasitəsilə görə bilərsiniz. Əminəm ki, buna peşman olmayacaqsınız. Səyahət sevərlər mütləq yolunu buradan salmalıdır. Seyfulla dayının da dediyi kimi:

Yaz olanda Şahbulaqda olasan...

**Məmməd BABAYEV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:* Hansı mübahisələrlə bağlı əvvəlcə mediasiya sessiyasında iştirak tələb olunur?**

***Cavab:*** Mediasiya mübahisənin məhkəmədən kənar qaydada qarşılıqlı razılıq əsasında həll prosesidir. Mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), ailə münasibətlərindən irəli gələn mübahisələr, əmək münasibətlərindən irəli gələn mübahisələr və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Qanunla müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.

Kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə qeyd olunan Qanunun tələblərinə uyğun olaraq məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur.

Qeyd olunan mübahisələr mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunduqda belə mübahisələr üzrə mediasiya keçirilə bilməz. Həmin hallar aşkar edildikdə mediator (mediasiya təşkilatı), tərəflər və ya onlardan biri həmin mübahisələr üzrə mediasiya prosesindən imtina edirlər.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

### *İtmişdir*

Naxçıvan şəhər sakini Novruzov Samiq Mehdi oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndi, 4-cü küçə, döngə 10, ev 11-də yaşayan Rəcəbov Oruc Əli oğlunun adına olan torpaq sahəsinin 20411 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 453